**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİNİN FORMALAŞMASI VƏ SƏMƏRƏLİLİK PROBLEMLƏRİ

İxtisas: 5308.01 – "Ümumi iqtisadiyyat"

Elm sahəsi: İqtisad elmləri


İddiaçı: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Elnurə Bünyat qızı Məmmədova**


İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**


**GƏNCƏ – 2022**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | iqtisad elmləri doktoru, professor, **Eldar Allahyar oğlu Quliyev** |
| **Rəsmi opponentlər**: | iqtisad elmləri doktoru, professor **Eldar Rza oğlu İbrahimov** |
| | iqtisad elmləri doktoru, professor **Zahid Fərrux oğlu Məmmədov** |
| | iqtisad elmləri doktoru, professor **Tərbiz Nəsib oğlu Əliyev** |
| | iqtisad elmləri doktoru, professor **Pəri Əmirəhməd qızı Həsənova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü, i.e.d., professor **Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | iqtisad üzrə fəlsəfə doktoru, dosent **Pərvin Elman qızı Muxtarova** |
| Elmi seminarın sədri: ____________ | iqtisad elmləri doktoru, professor, **Məhərrəm Cəlal oğlu Hüseynov** |

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Son onilliklərdə dünya iqtisadiyyatında baş verən təlatümlər, qeyri-sabitlik və qlobal böhranlar kifayət qədər düşündürücüdür. Beynəlxalq təşkilatlar, maliyyə institutları artıq əvvəlki təsir güclərini də nisbətən itirmişlər və qlobal proseslərin tənzimlənməsində yüksək nəticələrə nail olunmamışdır. Aparıcı dünya dövlətlərinin səylərinə baxmayaraq, beynəlxalq iqtisadi münasibətlərdə, xüsusilə maliyyə və investisiya axınlarının intensiv hərəkətində problemlər diqqət çəkməkdədir. 2008-ci illərin sonlarından başlayan dünya maliyyə böhranının mənfi nəticələri hələ də başa çatmamışdır və o dövrdən etibarən iri banklar, maliyyə-kredit təşkilatları və investisiya fondları tərəfindən maliyyə-investisiya resurslarının yönəldilməsində problemlər üzə çıxmışdır. Bütün bunlar yeni çağırışlara uyğun olaraq tənzimləmələri və təkmilləşdirmələri tələb edir.

Eyni zamanda, beynəlxalq iqtisadi əlaqələrin səmərəliliyinin artırılmasında, iqtisadiyyatın dayanıqlı şəkildə inkişaf etdirilməsində, iri layihələrin həyata keçirilməsində, daim tələbat artan enerji resursları yataqlarının işlənməsində, onların təsərrüfat dövriyyəsinə cəlb edilməsində, milli iqtisadiyyatların strukturunun təkmilləşdirilməsi və diversifikasiyalaşdırılması üçün aparılan islahatların reallaşdırılmasında iri məbləğdə investisiyalar tələb olunur. İnvestisiya axınlarının intensivliyinə nail olmaq, onların səmərəlilik problemlərini həll etmək müasir dövrün ən mürəkkəb məsələlərindən hesab olunur. Məhz bu istiqamətdə daha optimal və işlək mexanizmlərin olması iri investisiya layihələrinin hazırlanması və reallaşdırılması üçün əsas şərtlərdən biri kimi qiymətləndirilir. Bundan başqa, investisiya axınlarının adekvat idarə edilməsi, onların şəffaflığının təmin olunması, bu sahədə maliyyə hesabatlarının dürüstlüyü potensial investorların məhsuldar fəaliyyət göstərməsi üçün vacib amillərdəndir.

İnvestisiyalar iqtisadi böhrandan çıxmaq, milli iqtisadiyyatdakı struktur dəyişikliklərini, müəssisələrin texniki modernləşdirilməsini və rəqabət qabiliyyətini artırmağın əsas şərtlərini formalaşdıran başlıca vasitə rolunu oynayır. İnvestisiyalar həm də iqtisadi bir kateqoriya olaraq ən vacib funksiyaları yerinə yetirirlər, makro, mezo və

mikro səviyyələrdə iqtisadi problemlərin həllinə kömək edir, eyni zamanda iqtisadi islahatlar və iqtisadiyyatın yenidən qurulması üçün əlverişli şərait yaradır. Səmərəli investisiya strategiyası bazar iqtisadiyyatının sabitləşməsinin, normal fəaliyyətinin və inkişafının əsas istiqamətlərindən biri kimi ön plana çıxır.

İnvestisiyaların cəlb olunması, ilk növbədə davamlı şəkildə xarici investisiyaların milli iqtisadiyyatın müxtəlif sahələrinə intensiv axınının təmin edilməsi iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrin əksəriyyəti, o cümlədən Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. Bu və ya digər iqtisadiyyat sahəsinin modernləşdirilməsi, müasir texnologiyaların transfer edilməsi, zəruri avadanlıqların və qurğuların ölkəyə gətirilməsi, rəqabətqabiliyyətli istehsal sahələrinin yaradılması böyük məbləğdə investisiyaların cəlbini tələb edir. Amma potensial investorlar heç də təqdim olunan layihələrə investisiyalar yatırmaqda tələsmirlər və onların bu layihələrə cəlb edilməsindən ötrü böyük səylər göstərmək, biznes-investisiya planları və layihələri hazırlamaq, onların səmərəlilik hesabatlarını əsaslandırmaq lazım gəlir. Bunlardan əlavə, mühüm amillər kimi investisiyaya cəlb olunan ölkədə siyasi-iqtisadi sabitliyin səviyyəsi, makroiqtisadi və makromaliyyə göstəricilərinin adekvatlığı, maliyyə-kredit sisteminin və maliyyə xidmətləri bazarının inkişafı, ən əsası isə ölkədə investisiya mühitinin adekvatlığıdır.

İnvestisiya mühitinin formalaşması və onun səmərəlilik problemlərinin həll edilməsi dövlətin iqtisadi və investisiya siyasətinin başlıca ana xətti kimi çıxış edir. İnvestisiya mühitinin bazis şərtlərinin qlobal dünyamızın yeni çağırışlarına, o cümlədən hazırkı şəraitdə COVİD-19 koronavirus pandemiyasının mənfi təsirindən yaranan vəziyyətə uyğunlaşdırılması, dünya səviyyəsində maliyyə bazarları seqmentlərinin inkişaf səmtləri ilə əlaqəli tənzimlənməsi, investisiyaların qlobal hərəkət trayektoriyasından və beynəlxalq investisiya bazarının həlledici amillərindən, xüsusiyyətlərindən yanaşmaqla, maksimum işlək və məhsuldar investisiya fəaliyyəti mexanizmlərinin hazırlanması və investisiya mühitinin cəlbediciliiliyinin artırılması strateji əhəmiyyət kəsb edir.

İnvestisiya mühitinin maksimum işlək olması və potensial investorları cəlb etməkdə onları motivasiya edə bilməsi olduqca vacib

məsələdir. Hər bir investor yönəldəcəyi investisiya resurslarının gələcəyi və onun səmərəli olub-olmaması üçün nara-hatçılıq keçirir. Buna görə də investorlarla aparılan danışıqlarda və hazırlanan investisiya layihələrində mühüm məsələlər sırasında investisiya yatırılan ölkədə xarici investisiyaların qorunmasının qanunvericilik bazasının işləkliyi, investisiya fəaliyyəti üçün müvafiq infrastrukturun olması, mərkəzi və yerli icra strukturlarının investisiya mühitinin yaxşılaşdırılmasına praktiki münasibətinin səviyyəsi, ölkə regionlarında investisiyaların hərəkətinə mane olan amillərin aradan qaldırılmasına yönəldilmiş tədbirlərin məcmusu xüsusi diqqət mərkəzində saxlanılır. Hesab edirik ki, investisiya mühitinin formalaşması ilə bağlı dövlət tənzimləyici mexanizmləri müəyyən bir hədd daxilində olmalı və obyektiv reallıqları nəzərə almalıdır. Ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində, müəssisə və təşkilatlarda investisiya mühitinin formalaşması və inkişaf etdirilməsi ilk növbədə dünyada mövcud olan mütərəqqi investisiya fəaliyyəti təcrübəsinə əsaslanmalı və böyük ölçüdə bazar iqtisadiyyatı mexanizmlərini özündə ehtiva etməlidir.

Azərbaycanda investisiya mühitinin formalaşması və müasir dövrün tələblərinə uyğun şəkildə tədbirlərin görülməsi müstəqilliyin bərpasından sonrakı ilk illərdən başlayaraq dövlət səviyyəsində xüsusi diqqət mərkəzində olmuşdur. Başlıca məqsəd ölkədə investisiya fəaliyyəti üzrə qanunvericiliyin yaradılması, xarici investisiyaların qorunması tədbirlərinin görülməsi və bununla da ölkəmizə xarici investisiyaların, o dövr üçün ilk növbədə neft sektoruna vacib olan investisiyaların cəlb edilməsindən ibarət olmuşdur. Həmin mürəkkəb vəzifənin öhdəsindən gəlməkdə ulu öndər Heydər Əliyevin tarixi səylərini də qeyd etmək vacibdir və 1994-cü il sentyabrın 20-də dünyanın iri neft-qaz şirkətlərinin iştirakı ilə bağlanmış "Əsrin müqaviləsi" ölkəmizdə investisiya mühitinin sürətli şəkildə cəlbediciliyinin artırılmasına imkan vermişdir. Bu baxımdan, Azərbaycanda investisiya mühitinin formalaşması və səmərəlilik problemlərinin həll edilməsində Heydər Əliyevin titanik səylərini və xidmətlərini qeyd etmək obyektivlik olardı. Belə ki, məhz "Əsrin müqaviləsi"nin reallaşdırılması sayəsində Azərbaycanın karbohidrogen ehtiyatlarından səmərəli istifadə olunmasına əsaslı zəmin yaradılmışdır. Neft və qaz hasilatı sahələrinə investisiya axını başlamış, dünyanın aparıcı şirkətləri ölkəmizə gəlmiş

və bununla da Azərbaycanda investisiya mühitinin cəlbediciliyi xeyli artmışdır. Hesab edirik ki, məhz əsrin müqaviləsindən irəli gələn vəzifələrin ardıcıl şəkildə reallaşdırılması ölkəmizdə investisiya cəlbediciliyinin artırılmasında həlledici rol oynadı. Belə ki, neft amili Azərbaycan dövlətinin müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir. "Əsrin müqaviləsi"nin 25 illiyinə həsr edilmiş mərasimdə Prezident İlham Əliyev demişdir ki, "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimizin əyani sübutudur [47]. Ümumən bu proseslərdə ölkəmizə xarici investisiyalar axını intensivləşmiş və müstəqilliyin bərpası dönəmində milli iqtisadiyyatımıza yatırılan investisiyaların əhəmiyyətli hissəsi xarici investisiyalardan ibarət olmuşdur. Bununla belə, qeyri-neft sektoru sahələrinə yönəldilən xarici investisiyaların həcmi ölkəmizin iqtisadi inkişaf prioritetlərinə və hədəflərinə adekvat deyildir. Bu isə həmin istiqamətdə investisiya mühitinin maksimum təkmilləşdirilməsi və investisiya cəlbediciliyinin artırılmasını şərtləndirir. Məhz bu səbəbdən dövlət tərəfindən ölkə regionlarının sosial-iqtisadi inkişafına, infrastrukturun yaradılmasına, ayrı-ayrı iqtisadiyyat sahələrinin dəstəklənməsinə yönəldilən məqsədli dövlət investisiyalarının yükünü azaltmaq üçün ölkəmizdə dünya təcrübəsinə uyğun investisiya mühitinin formalaşdırılması və investisiya cəlbediciliyi mexanizmi yaradılmalıdır.

Bunlarla bərabər, 44 günlük vətən müharibəsinin Böyük Qarabağ Zəfərindən sonra ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması və onun səmərəlilik problemlərinin həllinə daha çox diqqət yetirilməsi məsələləri xeyli aktuallaşmışdır. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımız vəhşicəsinə təcavüzə məruz qalmış, bu ərazilərdə yerləşən nə varsa hamısı dağıdılmış və viran qoyulmuşdur. Hazırda işğaldan azad olunmuş ərazilərdə böyük həcmli infrastruktur şəbəkəsi yaradılır, yaşayış massivləri salınır, sənaye sahələrinin

inkişaf etdirilməsi üçün tədbirlər görülür. Dünya təcrübəsinə adekvat olan "ağıllı" texnologiyalara söykənmiş layihələr reallaşdırılır, 11 respublika və beynəlxalq əhəmiyyətli yol layihəsi icra edilir, Şuşa şəhərinə çəkilən zəfər yolunun istismara verilməsinə və postkonflikt ərazilərdə böyük köç qayıdışına hazırlıq işləri intensiv mərhələyə keçmişdir. Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsi, Ağdamda sənaye parkının və Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası"nın yaradılmasına başlanılması, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının tikintisi işlərinə start verilməsi, Zəngilan rayonunun Ağalı kəndləri bazasında "ağıllı kənd" layihəsinin reallaşdırılması, nəhayət, təkcə region üçün yox, beynəlxalq səviyyədə mühüm əhəmiyyət kəsb edən Zəngəzur dəhlizinin açılmasına hazırlıq işlərinin görülməsi ölkəmizdə investisiya mühitinin və cəlbediciliyinin yeni bir dövrü, yeni bir mərhələsi kimi qiymətləndirilməlidir.

Digər tərəfdən investisiya mühitinin əlverişli şəkildə formalaşdırılması və onun səmərəlilik problemlərinin həll edilməsi ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi baxımından kifayət qədər vacib hesab olunur. Qeyd olunan məqamlar fundamental səviyyədə tədqiqatların aparılmasını şərtləndirir və bu məqsədlə investisiya mühitinin formalaşması, onun iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi, hazırda mövcud olan investisiya mühiti və cəlbediciliyi şərtlərinin dərindən öyrənilməsi, daha məhsuldar mexanizmlərinin işlənməsi, yeni çağırışlar nəzərə alınmaqla tənzimləmələrin aparılması və təkmilləşdirmə tədbirlərinin görülməsi, baxılan problemlərin müvafiq həlli yollarının müəyyənləşdirilməsi zərurəti diqqət çəkir və bu göstərilənlər dissertasiya işinin mövzusunun aktuallığına dəlalət edir.

Mövzunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək lazımdır ki, Azərbaycanda investisiya mühitinin formalaşdırılması və səmərəlilik problemləri ilə əlaqədar məsələlərin konseptual formada öyrənilməsi və qiymətləndirilməsi, investisiya mühitinin iqtisadi mexanizmlərinin və investisiya cəlbediciliyinə təsir edən amillərin araşdırılması üzrə ölkəmizin, həm də xarici ölkələrin alimlərinin elmi əsərləri vardır. Azərbaycanlı iqtisadçı-alimlərdən akademik Z.Ə.Səmədzadə, A.F. Musayev, E.A.Quliyev, Ə.C.Muradov, Ə.Ə.Ələkbərov, T.H.Hüseynov, B.X.Ataşov, İ.H.İbrahimov, A.Ş.Şəkərəliyev, Ş.S.Qafarov,

Y.A.Kəlbiyev, M.M.Bağırov, Ə.Q.Əlirzayev, M.A.Əhmədov, R.Ə. Balayev, Z.F.Məmmədov, M.C.Hüseynov, E.M.Sadıqov, X.M.Hüseynova, C.B.Namazova, Ş.T.Əliyev, G.A.Əzizova, M.C.Atakişiyev, A.D.Hüseynova, A.E.Quliyeva, V.Ə.Qasımlı, V.İ.Bayramov, M.G. Gülaliyev, S.Z.İsayev, E.Ə.İbrahimov, B.S.Əhmədov və başqaları investisiya mühitinin təşkili ilə bağlı aktual problemlərə toxunmuş, investisiya mexanizmlərinin səmərəliliyinin artırılması və investisiyaların tənzimlənməsi, bununla bağlı dövlət siyasətinin təkmilləşdirilməsi məsələlərinə dair araşdırmalar aparmışlar. Prof. E.A.Quliyev "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" adlı fundamental monoqrafiyasında qlobal ərzaq təhlükəsizliyi kontekstində investisiyaların əhəmiyyətinə toxunarkən qeyd edir ki, kənd təsərrüfatına bir sıra investisiyalar, o cümlədən qidalanma ilə bağlı investisiyalar sağlamlıq və qidalanma sahələrində müsbət təsirlərə səbəb olur və bunlar kifayət qədər iqtisadi səmərə verir. Prof. T.H.Hüseynov Azərbaycanda investisiyaların iqtisadi və sosial səmərəliliyinin yüksəldilməsində rolunun açıqlanması üzrə fundamental tədqiqatlar reallaşdırmışdır. Əməkdar elm xadimi, prof. B.X.Ataşovun elmi əsərlərində maliyyə bazarlarının inkişafının dinamikliyi və bu proseslərdə onun mühüm seqmenti olan investisiya bazarının problemlərinə, investisiya mühitinin təşkilinə və cəlbediciliyinə dair araşdırmalar aparılmışdır. Prof. Ş.S.Qafarov "Pulun diktaturası" adlı monoqrafiya nəşr etdirmişdir, iqtisadiyyatda və cəmiyyətdə şəffaflığın təmin olunmasını, korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsini tədqiq etmişdir və bu məsələlər investisiya cəlbediciliyinin artırılmasında ciddi önəm kəsb edir. Prof. Z.F.Məmmədovun əsərlərində maliyyə-kredit təşkilatlarının investisiyaların formalaşdırılmasında və yönəldilməsində funksiyaları verilmişdir. Prof. Ş.T.Əliyev əsasən qeyri - neftqaz sektoru sahələrinin investisiya mühitinin yaxşılaşdırılması və cəlbediciliyinin artırılması məsələlərinə önəm vermişdir. Prof. E.M.Sadıqov müasir dövrdə investisiya mühitinin cəlbediciliyinin artırılmasında önəmli əhəmiyyət kəsb edən maliyyələşdirmə problemlərinə toxunmuşdur. Prof. Ə.Q.Əlirzayev Azərbaycanın sosial-iqtisadi inkişaf proseslərində maliyyə-büdcə məsələləri çərçivəsində investisiyaların əhəmiyyətinə diqqət yönəltmişdir. Prof. C.B.Namazova investisiya mühitinin təhlili, eyni zamanda

burada vergi siyasətinin əhəmiyyətinə dair tədqiqatlar aparmışdır. Prof. V.Ə.Qasımlının araşdırmalarında daha çox milli iqtisadiyyatın modernizasiyasının sürətləndirilməsi və bu proseslərdə dövlət investisiya siyasətinin müasir dövrün çağırışlarına uyğunlaşdırılması problemləri qabardılmışdır. Prof. A.E.Quliyeva son illərdə iqtisadiyyat sahələrinin maliyyələşdirilməsi, maliyyə təminatı mexanizmləri, o cümlədən maliyyə-investisiya resurslarının formalaşdırılması, regionlarda investisiya cəlbediciliyinin yaxşılaşdırılması və investisiya əlçatanlığının təmin edilməsi istiqamətlərində araşdırmalar həyata keçirilmişdir. Bir qrup alim-tədqiqatçıların - V.İ.Bayramov, M.G.Gülaliyev, S.Z.İsayev, E.Ə.İbrahimov və B.S.Əhmədovun elmi araşdırmalarında əsas diqqət isə milli iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılması, maliyyə-investisiya mexanizmlərinin səmərəliliyinin artırılması, investisiya mühitinin təşkili üzrə dünya təcrübəsindən bəhrələnməklə, ölkəmizə xarici investisiyaların cəlbinin intensivləşdirilməsi məsələlərinə toxunulmuşdur.

Klassik iqtisadi məktəbin nümayəndələri, həmçinin bir sıra xarici ölkə alimləri investisiyaların iqtisadiyyatda önəmli rolu, investisiyaların maliyyə bazarında funksiyaları, investisiya fəallığının gücləndirilməsi mexanzimləri, onların iqtisadiyyatın inkişafına göstərdiyi təsirin nəticələri və əhatəsi, investisiya mühitinin formalaşmasını şərtləndirən əsas amillər, investisiya axınlarının sürətləndirilməsini təmin edən fəaliyyət mexanizmləri üzrə elmi əsərlər yazmış və fikirlər bildirmişlər. Bununla bağlı A.Smit, A.Marşal, M.J.Keyns, R.M.Solou, J.E.Stiqlits, R.Frenkel, L.Paez, J.A. Okampo və başqalarının elmi yanaşmaları və əsərləri daha çox diqqət çəkirlər. Bundan başqa kapital, onun iqtisadiyyatda rolu, maliyyə və maliyyə resursları, iqtisadiyyatın şaxələndirilməsində kapital qoyuluşları və investisiyaların səmərəliliyi problemləri, həmçinin qlobal şəraitdə bu problemlərin həlli yollarının müəyyənləşdirilməsinə dair fikirlər bildirmiş, dissertasiyalar və elmi məqalələr yazmış tədqiqatçı-alimlərdən V.V.İvanter, İ.A. Artaşina, A.M.Arşinov, M.U.Bayçorov, K.V.Baldın, L.S.Valinurova, L.L.İqonina, İ.Y.Tkaçenko, N.İ.Malıx, Y.A.Kaşkaryeva, İ.B.Maksimov, M.Y.Maxotayeva, M.A.Nikolayev, D.P.Malışev, Y.N.Naumova, V.N.Myaqşin, Y.N.Kornyakov, A.N.Yeqorov, V.Y.Yatsuşko,

M.İ.Burdin, V.V.Tatsiy, E.A.Utkin, B.S.Şerbakov və digərlərinin əməyini qeyd etmək olar.

Bu qeyd olunan elmi əsərlərin və tədqiqat işlərinin mahiyyətindən yanaşmaqla, qeyd etmək olar ki, investisiyaların formalaşdırılması, işlək və əlverişli investisiya mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin təmin edilməsi aktual problemlərin həllini tələb edir və dövrün çağırışlarına uyğun təkmilləşdirmələrin aparılmasını, yeni mexanizmlərin işlənməsini və tətbiqini şərtləndirir.

Məhz bu amillərdən çıxış etməklə, qlobal iqtisadi çağırışlar şəraitində investisiya mühitinin yaxşılaşdırılmasına mane olan amillərin aradan qaldırılması, mövcud investisiya mühitinin obyektiv olaraq qiymətləndirilməsi və onun potensialının reallaşdırılması üçün zəruri tədbirlərin görülməsi istiqamətində davamlı araşdırmaların aparılması, tədqiqatların nəticəsinə uyğun olaraq adekvat tədbirlərin görülməsi vacibdir. Bütün bunlar öz növbəsində investisiya mühitinin formalaşdırılması və səmərəlilik problemlərinin daha dərindən araşdırılmasını vacib edir.

**Tədqiqatın obyekti kimi** Azərbaycanda bilavasitə investisiya mühitinin iştirakçı subyektlərinin, investisiya fəaliyyəti ilə məşğul olan bankların, maliyyəkredit təşkilatlarının, investisiya fondlarının, maliyyə-investisiya bazarlarının, həmçinin əlaqədar dövlət idarəetmə qurumlarının toplusu götürülmüşdür.

**Tədqiqatın predmetini** isə müasir çağırışlar şəraitində investisiya mühitinin formalaşması və səmərəlilik problemlərinin araşdırılması, investisiya cəlbediciliyinin artırılması, bu istiqamətlərdə tənzimləmə və təkmilləşdirmənin aparılması yolları, üsulları, qanunauyğunlqları, prinsip və meyarları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi investisiya mühitinin formalaşması və səmərəlilik problemlərinin həlli yollarının müəyyənləşdirilməsi, müasir qlobal şəraitdə investisiya cəlbediciliyinin artırılması və bununla əlaqədar mövcud yanaşmaların, mexanizmlərin təkmilləşdirilməsi üzrə elmi baxımdan ciddi arqumentləşdirilmiş təkliflər hazırlamaqdır. Bundan ötrü tədqiqat işinin strukturuna müvafiq olaraq bir sıra vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

– Müasir trendlər nəzərə alınmaqla, investisiya mühitinin formalaşdırılması və iqtisadi mexanizmlərin nəzəri yanaşmalarının tədqiqi;

– investisiya mühitinin cəlbedicilik və səmərəlilik məsələlərinə baxılması və burada olan problemlərin açıqlanması;

– investisiya mühitinin əsasını təşkil edən şərtlərin və amillərin metodoloji xüsusiyyətlərinin araşdırılması;

– dünya təcrübəsində investisiya mühitinin formalaşdırılması və onun səmərəliliyinin təmin edilməsi məsələlərinin öyrənilməsi və ümumiləşdirilməsi;

– investisiya fəallığının gücləndirilməsi üzrə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsinə baxılması;

– investisiya mühitinin formalaşdırılması proseslərində iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrin üzləşdikləri problemlərin təhlili;

– Azərbaycanda investisiya mühitinin müasir vəziyyətinin araşdırılması, hüquqi aspektlərin qiymətləndirilməsi;

– ölkəmizdə investisiya cəlbediciliyi məsələləri ilə bağlı mexanizmlərin və investisiya fəaliyyətinin təhlili;

– Azərbaycanda investisiya mühitinin işləkliyinə və məhsuldarlığına əngəl yaradan problemlərin öyrənilməsi;

– ölkəmizdə investisiya mühitinin potensialının araşdırılması, yeni texnologiyaların, o cümlədən rəqəmsal və "ağıllı" texnologiyaların tətbiqi əsas götürülməklə, postkonflikt ərazilərdə institusional tədbirlərin görülməsi perspektivlərinin araşdırılması;

– işğaldan azad olunmuş ərazilərdə investisiyaların konsolidasiyası, cəlb edilməsi və yatırılması ilə bağlı fəaliyyətlə məşğul ola biləcək investisiya qurumlarının yaradılması perspektivlərinə baxılması və dəyərləndirilməsi;

– Strateji Yol Xəritəsinə uyğun olaraq investisiya mühitinin və fəaliyyətinin tənzimlənməsi;

– müasir şəraitdə daha çox istifadə olunan investisiya mexanizmlərinin təkmilləşdirilməsi imkanlarına nəzər salınması;

– qlobal çağırışlar dövründə və COVİD-19 pandemiyasının təsirindən yaranan şəraitdə investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Tədqiqat prosesində iqtisadi təhlilin müxtəlif metodlarından istifadə olunmuşdur. İlk növbədə işin strukturu üzrə qoyulan problemlərə kompleks və sistemli yanaşma təmin olunmuşdur. İqtisadi metodlar kimi analiz və sintez, müqayisəli təhlildən daha çox istifadə edilmişdir, həmçinin statistik baza əsasında təhlillər və qiymətləndirmələrdən bəhrələnilmişdir. Tədqiqat işinin nəzəri-metodoloji əsaslarının öyrənilməsində və ümumiləşdirmələr aparılmasında bir qrup Azərbacan və xarici ölkə alimlərinin əsərlərinə istinad edilmişdir. Bu proseslərdə qoyulan problemlər üzrə müəllif yanaşmalarından istifadə edilməsi imkanlarına da baxılmışdır.

Eyni zamanda, dünya təcrübəsində investisiya mühitinin formalaşdırılması və səmərəlilik problemlərinin daha optimal yollarının müəyyənləşdirilməsi üzrə beynəlxalq və ölkəmiz səviyyəsində qəbul olunmuş sənədlərdən, hüquqi aktlardan, investisiya mühitinə və investisiya cəlbediciliyinə dair ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarının və mərkəzlərinin hazırladığı metodoloji materiallardan işdə istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas elmi müddəalar** bunlardır:

- qlobal dəyişikliklər və təsirlər şəraitində dünya təcrübəsində formalaşmış investisiya mühitinin və investisiya cəlbediciliyi şərtlərinin təkmilləşdirilməsi zərurəti yaranmışdır;
- investisiya mühitinin mövcud mexanizmlərinin səmərəliliyini artırılması və potensial investorların stimullaşdırılması meyarlarının yenilənməsinə ehtiyac var;
- dünya ölkələrində investisiyaların dinamik hərəkətinin qeyri-sabitliyi, investisiyaların formalaşması və yönəldilməsi proseslərinin mürəkkəbliyi yeni yanaşmaların müəyyənləşdirilməsini tələb edir;
- Azərbaycanda investisiya mühitinin formalaşdırılması proseslərinin yeni çağırışlar nəzərə alınmaqla obyektiv təhlilinə və qiymətləndirilməsinə ehtiyac yaranıb;
- investisiya cəlbediciliyinin artırılması və potensial investorların maksimum stimullaşdırılması daha təkmilləşdirilmiş mexanizmlərin işlənməsini şərtləndirib;
- investisiya fəaliyyətinin səmərəli təşkilində, xüsusilə qeyri-neft sektoru sahələrinə investisiyaların cəlb edilməsində və investisiya mühitinin yaxşılaşdırılmasında həllini gözləyən problemlər qalıb;

- Azərbaycanda neft-qaz sektoru istisna olmaqla, digər sahələrdə investisiya mühitinin yaxşılaşdırılmasını ləngidən problemlərin dərindən öyrənilməsi və daha işlək mexanizmlərin tətbiq olunması gecikir;

- Strateji Yol Xəritəsinin məlum hədəflərinin intensiv fazaya keçməsinə baxmayaraq, burada nəzərdə tutulan investisiya hədəflərinin reallaşdırılmasındakı problemlər yeni həll yollarının müəyyənləşdirilməsini vacib edib;

- COVİD-19 pandemiyasının təsirindən baş verən mənfi tendensiyalar və iqtisadi inkişaf proseslərindəki durğunluq halları post-pandemiya dövründə daha iri investisiya axınlarına zərurət formalaşdırıb;

- işğaldan azad olunmuş ərazilərin geniş həcmdə reabilitasiyası və dirçəldilməsi ilə bağlı layihələr və bu ərazilərdə görülməsi nəzərdə tutulan iri miqyaslı tədbirlər, sosial və istehsal infrastrukturunun yaradılması, perspektiv iqtisadiyyat sahələrinin qurulması davamlı şəkildə və uzunmüddətli dövr üçün intensiv investisiya axınlarına tələbat yaradıb;

- ümumən ölkəmizdə qlobal iqtisadi çağırışlar şəraitində investisiya mühitinin səmərəlilik problemlərinin yüksək səviyyədə həll olunması və investisiya axınlarının dinamikliyinə ciddi zəmin yaradılması tələb olunur.

**Tədqiqatın elmi yenilikləri** bunlardan ibarətdir:

– qlobal təsirlərin gücləndiyi bir dövrdə investisiya mühitinin formalaşması və səmərəlilik problemlərinin həllinə optimal yanaşmaların təmin edilməsi, maksimum təkmilləşdirmələrin aparılması və dövlətin investisiya siyasətinin yenilənməsinin vacibliyi üzrə konseptual elmi baxışlar və fikirlər sistemləşdirilmişdir;

– dünya maliyyə-investisiya bazarlarının müasir inkişaf səmtlərindən və zaman kəsiyində praktiki reallıqlarından çıxış etməklə, investisiya mühitinin formalaşması və iqtisadi mexanizmlərinə nəzəri yanaşmaların blok-sxemi hazırlanmışdır;

– investisiya mühitinin formalaşmasında və səmərəlilik problemlərinin həllində strateji əhəmiyyət kəsb edən siyasi-hüquqi, iqtisadi və sosial-mədəni amillər bloku əsaslandırılmış və sistemləşdirilmişdir;

– investisiya mühitinin formalaşmasının səmərəlilik problemləri açıqlanaraq ümumiləşdirilmiş və investisiya mühitininin yaranmasına ciddi təsir göstərən metodoloji xüsusiyyətlər müəyyənləşdirilmişdir;

– mütərəqqi və səmərəli investisiya fəaliyyəti mexanizmlərini, investisiya mühitinin yaradılması ilə bağlı strateji yanaşmaları əsas götürərək, dünya təcrübəsində investisiya mühitinin formalaşmasının əsas elementləri sxematik olaraq verilmişdir;

– beynəlxalq təcrübədə investisiya bazarı iştirakçılarının qarşılıqlı maraqlarına və potensial investorların şərtlərinə cavab verən investisiya mühitinin yaradılmasını ləngidən amillər təsnifatlaşdırılmışdır;

– Azərbaycanda investisiya mühitinin formalaşması və səmərəlilik problemlərinin həlli üzrə vəzifələrin və hədəflərin oxşarlığı ilə daha çox seçilən iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə investisiya mühitinin əsas elementlərinin təxmini sxemi işlənmişdir;

– dövlət investisiya siyasətinin məqsəd və vəzifələrindən, milli iqtisadiyyatın dayanıqlı inkişafına adekvat olan investisiya fəaliyyəti üzrə başlıca hədəflərdən yanaşmaqla, investisiya siyasətinin reallaşdırma mərhələləri və dövlətin investisiya fəaliyyətinə təsir alətləri əsaslandırılaraq müəyyənləşdirilmişdir;

– Azərbaycanda ÜDM-in dinamikasından və bütün mənbələr üzrə iqtisadiyyata yönəldilmiş investisiyaların həcminin qarşılıqlı təsirindən çıxış etməklə və reqressiya yolu ilə modelləşdirməklə, 2010-2020-ci illərdə bütün mənbələr üzrə iqtisadiyyata yönəldilmiş investisiyaların 1 manat artması hesabına ölkə ÜDM-nin 3,2327 manat artması müəyyənləşdirilmiş və müvafiq hesabat işlənmişdir;

– Azərbaycanda investisiya mühitinin və investisiya cəlbediciliyinin tələb olunan şərtlərindən və mexanizmlərindən çıxış etməklə, güclü və zəif tərəfləri, imkan və təhlükələri açıqlayan GZİT təhlili aparılmış və investisiya mühitinin yaxşılaşdırılmasına mane olan problemlər üzə çıxarılmışdır;

– qlobal təhdidlər və müxtəlif risklərin ortaya çıxması baxımından Azərbaycanın investisiya mühitinin strukturu hazırlanmış, tərkib elementləri verilmiş və investisiya mühitinə əhəmiyyətli təsir göstərən qiymətləndirmə meyarları müəyyənləşdirilmişdir;

– işğaldan azad olunmuş ərazilərdə investisiya mühitinin formalaşması və səmərəlilik problemlərinin həlli məqsədilə Qarabağ İnvestisiya Fondunun yaradılmasının vacibliyi əsaslandırılmış və onun fəaliyyətinin təşkili üzrə tədbirlərin alqoritm-sxemi hazırlanmışdır;

– Azərbaycanda investisiya mühitinin təşkili və investisiya fəaliyyətinin səmərəlilik problemlərinin həlli yollarının Strateji Yol Xəritəsinin hədəflərinə uyğunlaşdırılması məsələlərinin əsaslandırılmış kompleks blok-sxemi verilmişdir;

– Azərbaycanda milli iqtisadiyatın diversifikasiyalaşdırılması və regionların investisiya cəlbediciliyinin artırılması məqsədilə perspektiv qeyri-neftqaz iqtisadiyyat sahələrinin inkişaf hədəflərinə adekvat investisiya mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;

– Postpandemiya dövrü, uzaq perspektivlər nəzərə alınmaqla və əsaslandırılmaqla, Azərbaycanda dövlət investisiya siyasətinin qlobal iqtisadi çağrışlara görə yenilənməsi və investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi yolları işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində alınmış elmi nəticələrdən, təklif və tövsiyələrdən ölkəmizdə dövlətin investisiya siyasətinin müasir çağırışlara uyğunlaşdırılması, qlobal təsirlərə adekvat olaraq təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması və investisiya cəlbediciliyinin yüksəldilməsi mexanizmlərinin işlənməsində, tədbirlərin hazırlanmasında, tənzimləyici addımların atılmasında istifadə oluna bilər. Bundan əlavə, ölkədə investisiya fəaliyyətinin səmərəliliyinin artırılması və xüsusilə, qeyri-neft sektoru sahələrində potensial investorlar üçün kifayət qədər əlverişli olan investisiya mühitinin formalaşdırılmasında və təşkilində işdə yer almış yanaşmalar, metodoloji elementlər, təklif olunan mexanizmlər və bu sahədə mövcud problemlərin göstərilən həlli yolları müvafiq layihə və proqramlar hazırlanarkən fayda gətirmək imkanına malikdir.

Dissertasiyada verilmiş elmi-nəzəri müddəalardan və materiallardan investisiyaların təşkili, investisiya mühitinin yaradılması, investisiya cəlbediciliyinin yüksəldilməsi, investisiya layihələrinin idarə olunması, investisiya resurslarından səmərəli istifadə edilməsi ilə

bağlı dərsliklərin, dərs vəsaitlərinin, metodiki vəsaitlərin və xüsusi bülletenlərin hazırlanmasında istifadə etmək mümkündür. Konkret olaraq tədqiqat işinin elmi-nəzəri və praktiki materiallarından iqtisad yönümlü ali məktəblərdə "İnvestisiya menecmenti", "İnvestisiya proseslərinin idarə olunması", "Maliyyə və investisiyalar", "Maliyyə bazarları" və s. fənlərin tədrisində istifadə edilməsi məqsədəmüvafiqdir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Kooperasiya Universiteti "İqtisadiyyat və vergi işi" kafedrasının elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmaqla, müasir dövrdə aktual məsələlər kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə olunmuş və bəyənilmişdir.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 26 məqalə və tezisi, o cümlədən, 5 məqalə və 2 tezisi xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc olunmuşdur. Tədqiqatın əsas müddəaları "İqtisadi təhkükəsizlik: mövcud vəziyyət və perspektivlər" mövzusunda beynəlxalq elmi konfransda - "Modernləşmə şəraitində aqrar sahəyə dövlət yardımı mexanizmlərinin təkmilləşdirilməsi yolları" (2018), Azərbaycan Kooperasiya Universitetinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin, İqtisadçılar İttifaqının, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransda - "Azərbaycanda investisiya mühitinin səmərəliliyinin artırılması yolları" (2018), AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda Beynəlxalq elmi-praktik konfransında "Azərbaycanda milli iqtisadiyyatın artmına investisiyaların təsirinin təhlili və qiymətləndirilməsi" (2018), "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" Beynəlxalq Elmi Konfransında "İnvestisiya mühitinin cəlbediciliyi və iqtisadi təhlükəsizlik arasındakı qarşılıqlı fəaliyyətin nəzəri metodoloji problemləri" (2020), "Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu" mövzusunda Respublika elmi konfransında "Ölkənin ticarət-logistika infrastrukturunun tranzit potensialından səmərəli istifadə olunmasında investisiya fəallığının rolu" (2020), Moskvada (Rusiya Federasiyası) keçirilən («Вызовы современности и стратегии развития общества в условиях новой реальности») IV

Beynəlxalq elmi-praktiki konfransda “Пути повышения эффективности инвестиционной среды Азербайджана в современных условиях” (2021) və yenə Moskvada keçirilən («Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе») IV Beynəlxalq elmi-praktiki konfransda “Актуальность совершенствования государственной инвестиционной политики Азербайджана в постпандемическом периоде” (2021) adlı tezislərdə verilmişdir.

Bundan əlavə, iddiaçının “Dünya ölkələrində investisiya mühitinin formalaşdırılması prosesləri və investisiya fəallığının gücləndirilməsi mexanizmləri” (2018), “Актуальные проблемы и вопросы по формированию и обеспечению рациональности инвестиционного климата в аграрной сфере Азербайджана” (2018), “Современные проблемы формирования и повышения привлекательности инвестиционного климата Азербайджана” (2018), “Müasir şəraitdə investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri” (2018), “Ölkənin investisiya mühitinin formalaşması və cəlbediciliyinin artırılmasının tənzimlənməsi istiqamətləri” (2018), “Azərbaycanda qlobal iqtisadi çağırışlar kontekstində investisiya mühitinin və strukturunun qiymətləndirilməsi” (2018), “Modernləşmə şəraitində aqrar sahənin inkişafına investisiya yatırımları ərzaq təhlükəsizliyi üçün başlıca amildir” (2018), “İnvestisiya mühitinin yaxşılaşdırılmasına mane olan problemlərin təhlili və qiymətləndirilməsi məsələləri” (2019), “İnvestisiya mühitinin formalaşdırılması proseslərinin və mexanizmlərinin müasir aspektləri” (2019), “Dünya ölkələrində investisiya mühitinin formalaşması təcrübəsinin Azərbaycana tətbiqi məsələləri” (2019), “İnvestisiya mühitinin səmərəliliyinin artırılması və fəallığının təmin edilməsinə strateji yanaşmaların əhəmiyyəti” (2019), “Qlobal iqtisadi çağırışlar kontekstində investisiya proseslərinin idarəetmə mexanizmlərinin qiymətləndirilməsi” (2019), “İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə investisiya fəallığının strateji aspektləri” (2020), “Azərbaycanda investisiya potensialının gücləndirilməsi və infrastrukturun yaradılması problemləri” (2020), “Postpandemiya dövründə Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması prioritetləri” (2021), “İnvestisiya mühitinin səmərəlilik problemlərinə nəzəri-metodoloji yanaşmalar” (2021), Rusiyanın Moskva

şəhərində nəşr olunan “Maliyyə iqtisadiyyatı” jurnalında “Основные цели совершенствования инвестиционных механизмов в контексте Стратегических Дорожных Карт Азербайджана” (2020) və “Стратегическая важность усиления инвестиционной активности в условиях новых вызовов” (2021), “Вопросы истории” jurnalında “Историческая важность повышения эффективности инвестиционной среды в Азербайджане” (2021 - Scopus) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Üz qabığı və mündəricat (3210 işarə), giriş (31278 işarə), I fəsil (82793 işarə), II fəsil (84323 işarə), III fəsil (77929 işarə), IV fəsil (73418 işarə), V fəsil (81999 işarə), nəticə (18607 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (47326 işarə) üzrə ümumi həcm 500883 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 453557 işarədir.

## DİSSERTASİYA İŞİNİN QISA İCMALI

**Dssertasiyanın giriş hissəsində** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, onun nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin ümumi həcmi barədə geniş şərh verilmişdir.

**“İnvestisiya mühitinin formalaşmasının nəzəri-metodoloji əsasları” adlanan birinci fəsildə** investisiya mühitinin formalaşdırılmasının və iqtisadi mexanizmlərinin nəzəri məsələləri tədqiq olunmuş, onlara adekvat ümumiləşdirmələr aparılmış, investisiya mühitinin cəlbediciliyi və səmərəlilik aspektləri araşdırılmış, eyni zamanda investisiya mühitini şərtləndirən amillər və onların metodoloji xüsusiyyətləri müəyyənləşdirilmişdir.

Müasir dövrdə ölkə iqtisadiyyatının dayanıqlı və optimal inkişafının təmin edilməsi bir çox mühüm amillərin nəzərə alınmasını

şərtləndirir. Bu sırada investisiya amili xüsusi önəm kəsb edir. Belə ki, iqtisadiyyatın hazırkı inkişafı əsasən yeniliklərlə əlaqələndirilir ki, bu da öz növbəsində əhəmiyyətli və davamlı investisiyalar tələb edir. İnvestisiyalar iqtisadiyyatda kifayət qədər mühüm rol oynayır və müxtəlif iqtisadiyyat sahələrinin gücləndirilməsində, istehsal fondlarının yenilənməsində, müasir texnologiyaların transferində vacibdir. *"Müasir şəraitdə investisiyalar iqtisadiyyatda struktur dəyişikliklərinin təmin edilməsinin, texniki tərəqqinin nailiyyətlərinin həyata keçirilməsinin və iqtisadi fəaliyyətin keyfiyyət göstəricilərinin artırılmasına ən vacib vasitədir və əhalinin yaşayış səviyyəsini artıran sosial-iqtisadi dəyişikliklərə əhəmiyyətli səviyyədə kömək edir"*[1]. İnvestisiya mühiti anlayışı elmi iqtisadi ədəbiyyatlarda müxtəlif cür şərh olunur. Bununla birlikdə, hazırda bu kateqoriyanın əsas xüsusiyyətləri barədə açıq şəkildə təsbit edilmiş bir konsensus yoxdur. Bir qayda olaraq, iqtisadçılar bir neçə anlayışdan istifadə edirlər: investisiya mühiti, investisiya cəlbediciliyi, investisiya fəaliyyəti və s. Bəzi müəlliflər bu anlayışları aralarındakı əsas fərqləri açıqlamayaraq eyni anlayış kimi istifadə edirlər, bəziləri isə fərqli olduqlarına inanırlar. Hazırda investisiya mühitinin nəzərdən keçirilməsinə vahid yanaşma yoxdur və bu da həmin sahədə nəzəri-metodiki araşdırmalara ehtiyac yaradır. S.Z. İsayev investisiya mühitini hər hansı bir ölkədə investisiya qoyuluşu sahəsində mövcud olan vəziyyətin nə dərəcədə olması kimi xarektrizə edir[2]. Bundan əlavə, i.e.d. G.A.Əzizova investisiya mühiti dedikdə, investisiya bazarının həcmini, cəlbediciliyini, risk səviyyəsini müəyyən edən, ölkəyə daxili və xarici investisiya axınını təmin edən sosial-iqtisadi, siyasi, maliyyə amillərinin məcmusunu nəzərdə tutur[3]. Müəssisələrin, regionların və bütövlükdə iqtisadiyyatın investisiya potensialı onların investisiya cəlbediciliyini xarakterizə edən amillərin mövcudluğunu müəyyənləşdirir. Fikrimizcə, investisiya potensialı investisiya mühitinin xüsusiyyətlərini və imkanlarını xarakterizə edən

---

[1] Журавлева, К.А. Инвестиционный климат и его составляющие // Молодой ученый. – 2018. – № 50 (236). – с. 127.

[2] İsayev, S.Z. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011 – s. 59.

[3]Əzizova, G.A. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: İqtisad Universitetinin nəşriyyatı 2012. – s. 34.

iqtisadi kateqoriyadır. İnvestisiya potensialının tərkibi və strukturu ölkənin və onun regionlarının iqtisadi artım imkanlarını müəyyənləşdirməlidir və 2) İnvestisiya cəlbediciliyinin ikinci komponenti investisiya riskidir. Qeyd edək ki, seçilmiş investisiya layihəsi nə qədər sərfəli görünürsə, vəsait itirmə ehtimalı o qədər yüksəkdir. Yuxarıda göstərilən nəzəri baxışlara əsaslanaraq investisiya mühiti, investisiya cəlbediciliyi, investisiya potensialı, investisiya riski və investisiya aktivliyi anlayışlarının qarşılıqlı əlaqəsini sxematik olaraq əks etdirə bilərik (şəkil 1).




**Şəkil 1. İnvestisiya mühitinin əsas struktur elementləri və əlaqələrinin sxematik təsviri (**müəllif tərəfindən hazırlanmışdır**).**

İnvestisiya mühitinin formalaşmasının və iqtisadi mexanizmlərinin tədqiqindən çıxış etməklə, bu məsələlərə konseptual yanaşmaların müəyyənləşdirilməsi və müasir qlobal təsirin dərinləşdiyi, yeni çağırışların artdığı bir şəraitdə nəzərə alınması vacibdir.

Bunları vacib sayaraq şəkil 2-də investisiya mühitinin formalaşması və iqtisadi mexanizmlərinə nəzəri yanaşmaların blok-sxemini

hazırlamışıq.




**Şəkil 2. İnvestisiya mühitinin formalaşması və iqtisadi mexanizmlərinə nəzəri yanaşmaların blok-sxemi (**müəllif tərəfindən hazırlanmışdır**).**

Şəkil 2-yə əsasən qeyd etmək olar ki, müasir çağırışlar kontekstində investisiya mühitinin formalaşması və onun iqtisadi mexanizmlərinin maksimum təkmilləşdirlməsi, zəruri hallarda yenilənməsi dünya dövlətlərinin iqtisadi siyasətində maksimum prioritetlik təşkil edir. Buna görə də daha dayanıqlı, məhsuldar və səmərəli investisiya fəaliyyəti strategiyasının olması, investisiya mühitinin potensial investorların tələblərinə uyğun şəkildə formalaşdırılması və inkişaf etdirilməsi təmin olunmalıdır.

Müasir dövrdə investisiya mühitinin formalaşmasının səmərəlilik problemlərinin blok-sxemini qurmağa çalışmışıq və onun əsas tərkib elementləri şəkil 3-də öz əksini tapmışdır.




**Şəkil 3. Müasir dövrdə investisiya mühitinin formalaşmasının səmərəlilik problemlərinin blok-sxemi (**müəllif tərəfindən hazırlanmışdır**).**

Ölkədə investisiya mühitinin səmərəliliyinin artırılmasına mane olan problemlərin (şəkil 3) aradan qaldırılması və yaxud bu kimi problemlərin yaranmasına yol verilməməsi üçün qabaqlayıcı tədbirlərin görülməsi dövlətin investisiya siyasətinin başlıca vəzifələri və fəaliyyət istiqamətləri kimi baxılmalıdır.

İnvestisiyaların potensialının gücləndirilməsi və investisiya fəaliyyətinin səmərəli təşkili üçün tələb olunan resursların təsərrüfat və maliyyə dövriyyəsinə cəlb edilməsi, resurs-xammal potensialının istehsal proseslərinə fəal şəkildə yönəldilməsi bir çox məsələlərin tənzimlənməsini və institusional inkişafın genişləndirilməsini şərtləndirir. İnvestisiya mühitinin əlverişlilik səviyyəsinin yüksəldilməsi və investorlar üçün maksimum cəlbedici vəziyyətə gətirilməsi böyük

ölçüdə investisiya resurslarının adekvatlığından asılıdır[4]. Maliyyə və investisiya resursları təyinatı üzrə şəffaf və qənaətlə istifadə olunmalı, tərtib olunan mühasibatlıq sənədləri və maliyyə hesabatları obyektiv reallığı əks etdirməlidir. Buna görə də investisiyaların formalaşdırılması üçün bütün mümkün mənbələrdən yarana biləcək real vəsaitlər səfərbər edilməli və əlverişli investisiya mühiti yaradılmalıdır. Haqlı olaraq T.H.Hüseynov yazır: *“Dövlət və özəl sektorun vəsaitləri hesabına daxili investisiyaların artırlıması siyasətinin davam etdirilməsi, daxili investisiyaları stimullaşdıran vergi siyasətinin həyata keçirilməsi və emal sənayesi, aqrar sektor üçün ölkədə daha əlverişli investisiya mühitinin formalaşdırılması investisiya fəallığının yüksəlməsinə şərait yarada bilər... İndiki iqtisadi durumda dövlət investisiyalarının artırlması ümumi milli gəlirin artırılmasının mühüm amillərindəndir”*[5]. Bu baxımdan iqtisadiyyatın dövlət tənzimlənməsinin başlıca fəaliyyət istiqamətlərində və priroritetlərində investisiya mühitinin formalaşması ilə bağlı məsələlərin sistemli şəkildə dəyərləndirilməsi təmin edilməlidir.

Qeyd edək ki, investisiya mühitinin formalaşmasının metodoloji xüsusiyyətlərinin dərindən öyrənilməsi və hər bir ölkənin iqtisadi inkişaf prioritetləri, qarşısında duran başlıca vəzifələri və strateji hədəfləri çərçivəsində yanaşmaların formalaşdırılması daha çox səmərə verə bilər. Bu halda tətbiq edilən metodoloji prinsip və meyarlar, üsullar işləkliyi, məhsuldarlığı, həm də səmərəliliyi ilə diqqət çəkirlər. Buna görə də apardığımız tədqiqatların tərkib hissəsi kimi müasir dövrdə investisiya mühitinin formalaşmasının səmərəlilik problemlərinin blok-sxemini hazırlamağı vacib hesab etmişik (şəkil 4).

Şəkil 4-dən investisiya mühitinin formalaşmasının səmərəlilik problemlərinin içərisində həllini gözləyən kifayət qədər məsələlərin olmasını görmək mümkündür. Məhz buna görə də əksər dünya ölkələrində investisiya mühitinin daha əlverişli təşkilində böyük çətinliklər və maneələr qalmaqdadır.

---

[4] Əhmədov, B.S. İnvestisiya resursları və onların formalaşdırılması yolları/ İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı, № 1, 2011, s. 38.

[5]Hüseynov, T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika, Monoqrafiya. Bakı: Elm, 2015. – s. 52.




**Şəkil 4. İnvestisiya mühitinin formalaşmasının metodoloji xüsusiyyətlərinin blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

**“İnvestisiya mühitinin formalaşdırılması və səmərəliliyi üzrə beynəlxalq təcrübə” adlı ikinci fəsildə** dünya ölkələrində investisiya mühitinin formalaşdırılması prosesləri araşdırılmış, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə investisiya fəallığının gücləndirilməsi mexanizmləri baxılmış və inkişaf etməkdə olan ölkələrdə investisiya mühitinin formalşdırılması problemlərinə yanaşmalar müəyyənləşdirilmişdir.

Qeyd edək ki, inkişaf etmiş ölkələrin təcrübəsinə əsasən, investisiya fəaliyyəti üçün fiskal həvəsləndirmələrin istifadəsi məqsədyönlü xarakter daşımalıdır, nəinki makroiqtisadi konyunkturanı, həm də inkişafın regional xüsusiyyətlərini maksimum dərəcədə nəzərə almalıdır. Avropa İttifaqı ölkələrində investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin iqtisadi metodlarının tətbiqinin müqayisəli təhlili əsasında regionlar və orta respublika səviyyəsi arasındakı sosial-iqtisadi fərqliliyə uyğun olaraq ölkədə investisiya fəaliyyətinə dövlət dəstəyi

tədbirlərinin diferensiallaşdırılması daha çox diqqət çəkir. *"İnvestisiya kapitalının hərəkət istiqamətləri iqtisadi artımın vektorlarından xəbər verir, ölkələr isə öz növbəsində, investisiyaların cəlb edilməsi üçün ən əlverişli şərat formalaşdırmağa çalışırlar və bu proseslərdə müxtəlif inzibati, iqtisadi və hüquqi mexanizmlərdən fəal şəkildə istifadə edilir"*[6]. Optimal dövlət investisiya siyasətinin formalaşdırılması və bununla bağlı işlək mexanizmlərinin, alətlərinin hazırlanaraq təsərrüfat dövriyyəsinə daxil edilməsi son nəticədə ölkədə investisiya mühitinin maksimum yaxşılaşdırılmasına və tələb olunan xarici investisiyaların daha intensiv formada cəlb edilməsinə əsaslı zəmin yaradır.

Dünyanın bir çox ölkələrində investisiya mühitinə yanaşmalar kifayət qədər mütərəqqi və səmərəliyi ilə fərqlənir. Biz iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə mövcud investisiya siyasətinin, investisiya mühitinin və investisiya cəlbediciliyinin əsas xüsusiyyətlərini növbəti paraqraflarda daha geniş baxacağıq. Amma Azərbaycan reallıqları baxımından hətta kiçik ölkələrdə belə investisiya mühitinin cəlbediciliyinin yüksəldilməsində və yüksək texnologiayalrın tətbiqində beynəlxalq təcrübə diqqət çəkir. Məsələn, bir o qədər də böyük olmayan ölkədə - İrlandiyada investisiya mühitinin formalaşması və inkişafında toplanmış təcrübə təqdirəlayiqdir. Bu ölkədə investisiya mühitinin kifayət qədər əlverişli olması səbəbindən, bu ölkədə informasiya texnologiyaları kompaniyalarının əsas mərkəzləri yerləşir və son 20 ildə 1150 beynəlxalq statuslu kompaniyalar, o cümlədən Google, Facebook, Twitter, Airbnb, LinkedIn, Dell, IBM, Microsoft, Apple, HP, Intel və Paypal özlərinin Avropadakı istehsal sahələri və qərargahları üçün məhz İrlandiyanı seçmişlər. Belə ki, bu ölkənin investisiya mühitinin cəlbidiciliyində mühüm əhəmiyyət kəsb edən vergi-hüquqi sistemi xeyli sadə və həm də səmərəlidir. Avropada ən aşağı korporativ vergi İrlandiyadadır – 12,5 %, yaxud kapital artımına vergilər xeyli cəlbedicidir və s. Bütün bu kimi yanaşmalar xarici investorları daha çox cəlb edir və onlar fəal şəkildə investisiyalar yatırmaqdan çəkinmirlər. *"İnvestisiyaların idarəedilməsi ilə bağlı məsələlərdə bürokratiyanın minimuma endirilməsi də investisiya*

---

[6]Коварда, В.В., Рогов, Р.А. Исследование основных проблем привлечения иностранных инвестиций в экономику России // Вестник Евразийской науки, 2019 №1, Том 11 / 2019, No 1, Vol 11. – с. 4.

*mühitinin cəlbediciliyinin yüksəldilməsində əhəmiyyətli rol oynayır"*[7]. Bundan başqa, bir sıra digər kiçik ölkələr vardır ki, onlar investisiyalar üçün daha çox cəlbedici məkan kimi qiymətləndirilirlər. Məsələn, çox kiçik ərazidə yerləşən və təbii resurslara malik olmayan Sinqapurun iqtisadi yüksəlişində və inkişafında xarici investisiyaların strateji rolu olmuşdur. Sinqapur xarici investorlar üçün tam mənada cəlbedici investisiya yatırılması məkanı kimi çıxış edir. Başqa bir misal kimi, Cənubi Koreyanı göstərmək olar. Burada aparılan *"struktur islahatları nəticəsində uzunmüddətli dövr üçün investisiya mühitinin cəlbediciliyinin artırılması mümkün olmuşdur*"[8] Cənubi Koreyada korporativ vergilər aşağı salınmış, inzibati prosedurlar sadələşdirilmiş və xarici kapitalın maksimal həcmi xeyli artırılmışdır.

Beynəlxalq təcrübədə investisiyanın hərəkətini ləngidən, investisiya cəlbediciliyini aşağı salan amillərin müəyyənləşdirilməsi və sistemli tədbirlərin görülməsi də vacib hesab edilir. Dünya təcrübəsindən yanaşdıqda, investisiya fəaliyyətinin daha intensiv şəkildə təşkilinə və investisiya mühitinin yaxşılaşdırılmasına mane olan əsas amillər şəkil 5-də verilmişdir.

ABŞ dünyada ən çox investisiya ixrac edən ölkə kimi dünya investisiya proseslərinin aparıcı mərkəzi kimi diqqət çəkir. Bu ölkədə investisiya siyasətinin əsasında məqsədli kompleks proqramlar və regional səviyyədə inkişaf proqramları dayanır. ABŞ-da dövlət investisiya siyasətinin əsas məqsədi davamlı iqtisadi artımın təmin edilməsi, məşğulluğun yüksəldilməsi, inflyasiyanın azaldılması və tədiyyə balansının tarazlığının təmin edilməsidir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr daha çox investisiyaları xüsusi iqtisadi zona formatında olan ərazilərə və iqtisadi mexanizmlərə malik fəaliyyət sahələrinə yönəldirlər və dünyada 147 ölkəni əhatə edən 5400 bu qəbildən olan iqtisadi zonanının olmasını nəzərə alsaq, investisiyaların coğrafiyasının genişliyini təsəvvür etmək asanlaşar. Eyni zamanda, yaxın illərdə 500-dən çox yeni xüsusi iqtisadi zonanın yaradılması gözlənilir, bu isə dünya

---

[7]Валинурова, Л.С. Управление инвестиционной деятельностью. Москва: Кнорус, 2010. – с. 133.

[8]Седаш, Т.Н., Бирюков А.В. Использование зарубежного опыта для повышения конкурентоспособности и инвестиционной привлекательности российских регионов // Финансы и кредит. – 2013. №38 (566), – с. 62.

investisiya bazarında mövcud rəqabəti daha da artıracaqdır və iqtisadi cəhətdən inkişaf etmiş ölkələr yaxın və uzaq perspektivlərlə bağlı investisiya fəallığı mexanizmlərini təkmilləşdirməkdədirlər.




**Şəkil 5. Dünya təcrübəsində investisiya mühitinin yaxşılaşdırılmasına mane olan əsas amillərin təsnifatlaşdırılması (**müəllif tərəfindən hazırlanmışdır**).**

Yaxın perspektivdə investisiyaların cəlbi istiqamətində daha təsirli fəaliyyət məkanlarının formalaşdırılması diqqət mərkəzində olacaqdır və ilk növbədə yüksək texnologiyalar əsaslı rəqəmsal infrastrukturun yaradılması bu istiqamətdə önəmli rol oynayacaqdır[9]. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr sırasında investisiya mühitinin formalaşdırılması baxımından Çin təcrübəsinə daha çox yer ayrılmasını uyğun hesab etmişik və bunun başlıca izahı Çinin həm investisiyalar cəlb etməsində, eyni zamanda dünyanın çoxsaylı ölkələrinə investisiyalar yatırılmasında fəallığı ilə bağlıdır. Bundan əlavə, Çinin xarici investisiyaların cəlb edilməsində uğurlarının başlıca səbəblərindən biri də ölkədə sosial-iqtisadi və siyasi sabitliyin yüksək səviyyədə

[9] Доклад о мировых инвестициях 2019. Конференция Организации Объединенных Наций по Торговле и Развитию. – ЮНКТАД., Организация Объединенных Наций, 2019. – с. 17.

olmasıdır. *"İnvestisiya cəlbediciliyi baxımından Çin beş amil üzrə daha çox xarici investorları cəlb edir: 1) makroiqtisadi sabitlik; 2) investisiya mühiti; 3) elmi-texniki potensial; 4) insan kapitalı və 5) siyasi şərait"*[10]. Çinin iqtisadi uğurlarının əsasında hesab edirik ki, tarazlı və kifayət qədər cəlbedici olan dövlət investisiya siyasəti, investisiya mexanizmlərinin tənzimlənməsində dövlətin əhəmiyyətli rolu və dəstəyi dayanır.

**"Azərbaycanda investisiya mühitinin formalaşdırılması proseslərinin təhlili" adlı üçüncü fəsildə** müasir dövlətin investisiya siyasətinin və investisiya fəaliyyətinin normativ və hüquqi bazası, ölkədə investisiya fəaliyyətinin və strukturunun geniş təhlili həyata keçirilmiş, həmçinin investisiya mühitinin formalşdırılması proseslərinin və mexanizmlərinin səciyyəvi xüsusiyyətləri araşdırılmışdır.

Hər bir dövlətin investisiya siyasəti bu dövlətin iqtisadi siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Dövlət investisiya siyasəti sosial-iqtisadi siyasətin bir hissəsi olmaqla mühüm əhəmiyyət kəsb edir və həmin siyasətin optimal olması cəmiyyət və dövlət arasında daha sıx vəhdət yaradır, bunlar isə öz növbəsində milli iqtisadiyyatın inkişafına əsaslı təkan verir. İnvestisiya siyasəti dövlətin investisiya fəaliyyətinə münasibətini ifadə edir və burada dövlətin investisiya fəaliyyəti istiqamətində başlıca hədəfləri, prioritet vəzifələri öz əksini tapır. Xüsusilə, xarici investisiyaların cəlb edilməsində dövlətin maksimum hədəfləri və işlək, cəlbedici mexanizmləri olmalıdır. Professor A.Ş.Şəkərəliyev yazır: *"Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsinin başlıca səbəbi iqtisadiyyatda uzun müddət mövcud olmuş durğunluq və böhran vəziyyətindən çıxarmaq, həmçinin də ölkə daxili yığımların məhdud səviyyədə olmasına rəğmən xarici investisiyaların hesabına sahibkarlığın investisiya aktivliyini artırmaqdır"*[11]. Dövlətin həyata keçirdiyi investisiya siyasəti əsasən ölkədə əlverişli investisiya mühiti yaratmağa yönəldilmiş və xarici investisiya mühitinin vəziyyətinin müəyyən edilə biləcəyi müxtəlif amillərin məcmusu kimi şərh olunur. Tədqiqatçı Ş.T.Əliyev investisiya siyasətinin

---

[10]Никулина, С.И. Опыт привлечения иностранных инвестиций в КНР // Финансовый журнал. 2014. №3 (21). – с. 169.
[11]Şəkərəliyev, A.Ş., Şəkərəliyev Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: Turxan, NPB, 2016. – s. 112.

mahiyyətini belə açıqlamışdır: *"İnvestisiya siyasəti - kapital qoyuluşunun, onun səmərəli hərəkətinin və effektivli yerləşdirilməsinin əsas istiqamətlərini müəyyənləşdirən tədbirlər sistemidir. Bu tip tədbirlər əsasən dövlət səviyyəsində reallaşdırılır və bu tədbirlərin istiqaməti ölkənin xarici-ticarət siyasətinə, beynəlxalq iqtisadi əlaqələrinə, milli iqtisadi inkişaf modelinə uyğun müəyyənləşdirilir"*[12]. Dövlətin investisiya siyasətinin həyata keçirilməsi və reallaşdırılması bir sıra mərhələlərdən ibarətdir və bunlar şəkil 6-da göstərilmişdir.




**Şəkil 6. İnvestisiya siyasətinin reallaşdırılması mərhələləri (**müəllif tərəfindən hazırlanmışdır**).**

Cədvəl 1-də Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların dinamikası təhlil olunmuşdur. 2015-ci ildə milli valyuta-manatın ikiqat devalvasiyasından irəli gələn sualları və təhlil üçün qeyri-obyektivlik halları yarada biləcəyini əvvəlcədən nəzərə alaraq investisiyalar üzrə təhlillərin əksəriyyətini ABŞ dolları ekvivalentində aparmağı məqsədəuyğun saymışıq və bunun üçün rəsmi statistik mənbələrdən istifadə etmişik (cədvəl 1).

Şəkil 7-də Azərbaycanda 2005-2020-ci illərdə iqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların müqayisəli dinamikasını vermişik və buradan göründüyü kimi 2005-ci ildən başlayaraq 2010-cu

[12]Əliyev, Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Nəşriyyatı, 2015.–s. 21.

ilədək daxili investisiyalar sürətlə artmışdır və həmin dövr ərzində artım 4,2 dəfə təşkil etmişdir 2005-2016-cı illər ərzində birbaşa investisiyalarda yüksək artım tempi göstərmişdir- 87,5 %. Bundan əlavə, qeyd etmək lazımdır ki, 2016-cı ildə daxili investisiyalar 2 dəfdən çox azalmış və yalnız növbəti ildən başlayaraq 2019-cu ilədək yenidən artım tempini formalaşdırmışdır. 2020-ci ildə isə məlum Covid-19 pandemiyası səbəbindən daxili investisiyalar yenidən azalmışdır. Amma maraqlıdır ki, 2020-ci ildə birbaşa investisiyaların həcmi 2019-cu illə nisbətdə az da olsa-5,8 % artmış və 4,53 mlrd. dollar təşkil etmişdir.

**Cədvəl 1. Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların dinamikası, mln. doll (2005-2020-ci illər)**

| Göstəricilər: | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiyalar, (xarici investisiyaları nəzərə almaqla): | 7118,5 | 17591,4 | 19547,2 | 14228,0 | 14213,3 | 15221,7 | 14698,0 | 13131,9 |
| Daxili investisiyalar | 2225,3 | 9343,6 | 8828,1 | 4066,9 | 5092,8 | 6985,2 | 7568,9 | 7006,5 |
| Xarici investisiyalar, o cümlədən: | 2225,3 | 8 247,8 | 10719,1 | 10161,1 | 9120,5 | 8236,5 | 7129,1 | 6125,4 |
| Maliyyə kreditləri | 698,4 | 3405,9 | 2210,2 | 2197,8 | 1783,3 | 2880,0 | 1736,1 | - |
| Birbaşa investisiyalar, o cümlədən: | 4030,4 | 3614,9 | 7483,1 | 7323,6 | 5713,8 | 4109,1 | 4275,3 | 4527,7 |
| -Neft-qaz sektoru | 3799,9 | 2955,3 | 6622,7 | 5617,4 | 4900,8 | 3142,0 | 3345,2 | 3922,1 |
| -Qeyri neft-qaz sektoru | 230,5 | 659,4 | 860,4 | 1706,2 | 813,0 | 967,1 | 930,1 | 605,6 |
| Neft bonusu | 1,0 | 2,0 | 2,0 | 0,1 | 1,4 | 450,1 | 450,8 | - |
| Digər investisiyalar | 163,4 | 1225,0 | 1023,8 | 639,6 | 1622,0 | 797,3 | 666,9 | 1597,7 |
| Ümumi investisiyalarda xarici investisiyaların xüsusi çəkisi, % | 31,26 | 46,89 | 54,84 | 71,42 | 64,17 | 54,11 | 48,5 | 46,65 |

Mənbə: Azərbaycan rəqəmlərdə. Statistik məcmuə. 2021, s. 196.

Müasir dövrdə ölkə iqtisadiyyatına yönəldilən investisiyaların, şübhəsiz, böyük səmərəsi və təsiri vardır. Davamlı şəkildə yönəldilən investisiyalar iqtisadiyyatın müxtəlif sahələrinin resurs potensialının təsərrüfat və əlavə dəyər dövriyyəsinə cəlb edilməsində, maliyyə mənbələrinin yaradılmasında önəmli rol oynayır. Burada başlıca təsir dairələrindən biri – iqtisadi artımla və ümumilikdə ölkə ÜDM-nə yatırılan investisiyaların təsiri ilə bilavasitə əlaqəlidir. Məsələn, 2010-2020-ci illərdə ölkə ÜDM-in dinamikasından və bütün mənbələr üzrə

iqtisadiyyata yönəldilmiş investisiyaların həcminin qarşılıqlı təsirindən baxsaq və bununla bağlı təsir effektini reqressiya yolu ilə modelləşdirməyə çalışsaq, bunları alırıq (cədvəl 2).




**Şəkil 7. Azərbaycanda 2005-2020-ci illərdə iqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların müqayisəli dinamikası, mln.dollar (**ARDSK-nın məlumatları üzrə hazırlanmışdır - https://www.stat.gov.az**).**

**Cədvəl 2. Azərbaycanda 2010-2020-ci illərdə ölkə ÜDM-in və bütün mənbələrdən iqtisadiyyata yönəldilən investisiyaların həcminin dinamikası, mln. man.**

| | | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM, mln. man | y | 42465,0 | 52082,0 | 54743,7 | 58182,0 | 59014,1 | 54380,0 | 60425,2 | 70337,8 | 80092,0 | 81896,2 | 72432,2 |
| Bütün mənbələrdən iqtisadiyyata yönəldilən investisiyalar (xarici investisiyalar nəzərə alınmaqla), mlyn.manat | x | 14118,9 | 17048,8 | 20251,0 | 21448,2 | 21890,6 | 20057,4 | 22706,4 | 24462,5 | 25877,0 | 24986,6 | 22484,0 |

| *Reqressiya statistikası* | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| R | 0,911117 | | | | | | | |
| $R^2$ | 0,830135 | | | | | | | |
| Normallaşdırılmış R | -1,22222 | | | | | | | |
| Standart səhv | 5350,357 | | | | | | | |
| Müşahidələr | 1 | | | | | | | |
| *Dispersiya təhlili* | | | | | | | | |
| | *Df* | *SS* | *MS* | *F* | *F - Əhəmiyyətlilik* | | | |
| Reqressiya | 11 | 1,26E+09 | 1,14E+08 | 43,98312 | - | | | |
| Qalıq | 9 | 2,58E+08 | 28626315 | | | | | |
| Yekun | 20 | 1,52E+09 | | | | | | |
| | *Əmsallar* | *Standart səhv* | *t-statistika* | *P-Dəyər* | *Aşağı 95%* | *Yuxarı 95%* | *Aşağı 95,0%* | *Yuxarı 95,0%* |
| Y-kəsişmə | | | | | | | 3,2E-297 | 3,249E-297 |
| X 1 amili | | | | | | | 3,3E-297 | 3,298E-297 |
| X 2 amili | | | | | | | 9,7E-298 | 9,678E-298 |
| X 3 amili | | | | | | | 9,7E-298 | 9,678E-298 |
| X 4 amili | | | | | | | 1,8E-306 | 1,78E-306 |
| X 5 amili | | | | | | | 3,8E-308 | 3,755E-308 |
| X 6 amili | | | | | | | 8,7E-298 | 8,722E-298 |
| X 7 amili | | | | | | | -7E-297 | 8,362E-297 |
| X 8 amili | | | | | | | -2E-281 | 1,777E-281 |
| X 9 amili | | | | | | | -2E-281 | 1,777E-281 |
| X 10 amili | -6791,71 | 10552,29 | -0,64362 | 0,535873 | -30662,64052 | 17079,22 | -30662,6 | 17079,2224 |
| X 11 amili | 3,232714 | 0,487443 | 6,631977 | 9,57E-05 | 2,130039985 | 4,335387 | 2,13004 | 4,33538707 |




$$y = 3,2327x - 6791,7$$

Cədvəl 2-də verilmiş göstəricilərdən və reqressiya modelinin məlumatlarından istifadə etməklə, 2010-2020-ci illərdə bütün mənbələr üzrə iqtisadiyyata yönəldilmiş investisiyaların 1 manat artması ölkə ÜDM-in 3,2327 manat artmasına gətirib çıxarır.

**"Azərbaycanda investisiya mühitinin səmərəlilik problemləri və potensialının qiymətləndirilməsi" adlı dördüncü fəsildə** ölkədə investisiya mühitinin yaxşılaşdırılmasına mane olan problemlər tədqiq olunmuş və müəyyənləşdirilmiş, Azərbaycanda mövcud investisiya mühitinin potensialının adekvat olaraq qiymətləndirilməsi aparılmış və postkonfilikt ərazilərdə İnvestisiya Fondunu yaradılmasının regional investisiya mühitinə təsirinin qiymətləndirilməsi və proqnozlaşdırılması aparılmışdır.

İnvestisiya mühitinin yaxşılaşdırılması və onun adekvatlığına imkan verməyən problemlərin aradan qaldırılması dövlətə və hökumət strukturlarına olan ehtibarını da artırır. Belə ki, dövlət sdtrukturların investisiya mühitinin yaxşılaşdırılması ilə siyasətinə yanaşma metodları onlara olan inamın səviyyəsini ya artıra bilər, ya da azalda bilər, bu isə öz əksini müvafiq olaraq investor güvənində tapır. İqtisadi subyektləri və digər bazar iştirakçılarını cəlb etmək səyləri açıq və şəffaf şəkildə həyata keçirildikdə və müasir islahatlarla müşayiət olunduqda şirkətlərə olan inam arta və beləliklə investor marağını gücləndirə bilər. Bunun üçün dövlətin investisiya siyasətinə məsul olan icraşı qurumlar və strukturlar daha məhsuldat fəaliyyət göstərməli və səmərəli işlək mexanimlər hazırlanaraq tədbiq olunmalıdır.

Tədqiqat materiallarımız Azərbaycanda investisiya mühitinin potensialının qiymətləndirilməsi meyarlarının blok-sxemini hazırlamağa imkan vermişdir və bu öz əksini şəkil 8-də ifadə etmişdir.

Şəkil 8-in məzmunundan yanaşsaq, Azərbaycanda investisiya mühitinin potensialının qiymətləndirilməsində ölkəmizin aparıcı iqtisadiyyat sahəsi olan neft-qaz sektorunun strateji əhəmiyyətini və külli məbləğdə, davamlı şəkildə xarici investisiyaların cəlb edilməsi təcrübəsinin və mexanizmlərinin olmasını qeyd etməliyik. Bu bizə iqtisadiyyatımızın digər sahələrində, şübhəsiz ilk növbədə qeyri-neft sektoru sahələrində və bütövlükdə ölkəmizdə maksimum əlverişli və güclü investisiya mühiti potensialının formalaşdırılmasına və inkişafına imkan verir.




**Şəkil 8. Azərbaycanda investisiya mühitinin potensialının qiymətləndirilməsi meyarları blok-sxemi (**müəllif tərəfindən hazırlanmışdır**).**

Bunun üçün bir çox mühüm amillərin dəyərləndirilməsi, qanunvericilik bazasının müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi, investisiyaların təşviqi və dövlət dəstəyi üzrə mexanizmlərin yenilənməsi, maliyyə, innovasiya və texnologiyalar bazarlarının inkişafının sürətləndirilməsi, dünyanın potensial investor kompaniyaları ilə əlaqələrin gücləndirilməsi, xüsusilə yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında nümunəvi və cəlbedici investisiya mühitinin yaradılması tədbirləri gecikdirilmədən həyata keçirilməlidir.

Yaradılması təklif olunan "Qarabağ İnvestisiya Fondu"nun konseptual mahiyyəti postkonflikt ərazilərdə alternativ investisiyalara daha operativ və əlçatan cıxışın təmin edilməsi ilə bağlıdır. Bu fondun təşkili və təsis edilməsi, inkişaf etdirilməsi ilə bağlı tədbirləri özündə əks etdirən alqoritm – sxem şəkil 9-da verilmişdir.

Postkonflikt ərazilərdə analoji investisiya fondunun fəaliyyətə başlaması bu ərazilərdə quruculuq və dirçəldilmə proseslərində iştirak etmək istəyən şirkət və firmaların, innovasiya və texnoloji mərkəzlərin marağına səbəb ola bilər və onlar təqdim etdikləri layihələrinin ma-

liyyə təminatı problemlərinin həllində və investisiyaların cəlb olunmasında ixtisaslaşmış maliyyə - investisiya qurumu ilə əməkdaşlıq və tərəfdaşlıq edə bilərlər.




**Şəkil 9. Qarabağ İnvestisiya Fondunun yaradılması və fəaliyyətinin təşkili ilə bağlı tədbirlərin alqoritm-sxemi (**müəllif tərəfindən hazırlanmışdır**).**

Bunlar isə son nəticədə postkonflikt ərazilərdə bərpa və quruculuq işlərinin sürətləndirilməsinə, ayrı-ayrı istiqamətlərdə istehsal və

xidmət müəssislərinin yaradılmasına, yeni iş yerlərinin açılmasına əlavə imkanlar formalaşdırar.

**"Qlobal iqtisadi çağırışlar şəraitində Azərbaycanda investisiya mühitinin səmərəliliyinin artırılması istiqamətləri" adlı beşinci fəsildə** investisiya mühiti və fəaliyyətinin strateji yol xəritəsinin hədəflərinə uyğunlaşdırılması məsələləri araşdırılmış və müasir dövrün baxışları konteksində qiymətləndirilmiş, investisiya mexanizmlərinin təkmilləşdirilməsi və ya yenilənməsi istiqamətləri müəyyənləşdirilmiş, Azərbaycand qlobaı iqtisadi çağırışlar nəzərə alınmaqla investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi yolları verilmiş və əsaslandırılmışdır.

Dövlət tərəfindən maliyyə xidmətləri bazarının inkişafının stimullaşdırılması üçün bütün maliyyə seqmentlərinin, o cümlədən investisiyaların işlək mexanizmlərinin olması və bütün proseslərdə milli strateji maraqların təmin edilməsi ilə bərabər, eyni zamanda xarici investor-kompaniyaların səmərəli fəaliyyət göstərməsi üçün analoji addımların atılması mühümdür. İqtisadiyyatın real sektorların inkişafı üçün investisiyaların cəlb olunması, həmçinin ölkənin bank-kredit təşkilatları tərəfindən real iqtisadiyyat sahələrinə vəsaitlərin ayrılması, əlçatan kreditlərin verilməsi həmişə müəyyən disskusiyalara səbəb olub və dövlət tərəfindən bu məsələlərin stimullaşdırılması aktual olaraq qalmaqdadır.

Ölkəmizdə investisiya mühiti və fəaliyyətinin Strateji Yol Xəritəsinin hədəflərinə uyğunlaşdırılması məsələlərinin hazırda maksimum prioritetliyi ilə diqqət çəkir. Belə ki, bu hədəflərin müəyyənləşdirilməsindən sonra qlobal səviyyədə baş verən hadisələrin, ilk növbədə, COVİD-19 pandemiyasının mənfi təsiri davam etməkdədir və pospandemiya mərhələsinə hələ qədəm qoymamışıq. Eyni zamanda, 44 günlük Böyük Qarabağ Zəfərinin açdığı yeni perspektivlər və yaratdığı reallıqlar investisiya fəaliyyətinin və potensial investorların coğrafiyasının genişləndirilməsi imkanları daha çox diqqət çəkir. Xüsusilə, Zəngəzur Beynəlxalq dəhlizinin yaradılması və fəaliyyətə başlaması perspektivləri regionda və bütövlükdə ölkəmizin investisiya mühitinə böyük ölçüdə müsbət təsir göstərəcəkdir.

Hesab edirik ki, dövlətin investisiya siyasətinin əsas istiqamətlərindən biri də birbaşa xarici investisiyaların cəlb edilməsi siyasətidir

və birbaşa xarici investisiyalar ölkə iqtisadiyyatının investisiya ehtiyacları üçün vacib maliyyə mənbəyi kimi xarakterizə olunurlar. Fikrimizcə, birbaşa xarici investisiyaların cəlb edilməsi siyasəti bir sıra prioritet tədbirləri özündə ehtiva etməlidir: 1) birbaşa xarici investisiyaların cəlb edilməsi siyasətinin müasir dövrün tələblərinə uyğun əsas prinsiplərinin formalaşdırılması; 2) investorları stimullaşdırmaq məqsədilə daha adekvat yanaşmaların müəyyənləşdirilməsi; 3) birbaşa xarici investisiyaların cəlb edilməsindən ötrü adekvat investisiya mühitinin təşkil edilməsi; 4) investisiya riski sığortası sisteminin yaradılması; 5) xarici birbaşa investisiyaların cəlb edilməsinin intensivləşdirilməsini stimullaşdıran qanunvericilik bazasının yaradılması və s. Xaricdən investisiyaların cəlb edilməsinə olan maraq həm qanunvericilik səviyyəsində, həm də hökumət ilə konkret investisiya şirkətləri arasında xüsusi razılaşmalar çərçivəsində müəyyən edilmiş güzəştlər və zəmanətlər sisteminin yaradılmasını zəruri edir. Xüsusi investisiya stimulları formalaşdırarkən investor tərəfindən bir sıra şərtlərə əməl edilməsini təmin etmək lazımdır. Milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişaf prioritetinə uyğun olaraq stimullaşdırma mexanizmlərinin vahid bir paket halında birləşməsi vacib bir cəhət olacaqdır.

Ümumilikdə, Azərbaycanda investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi yollarını şəkil 10-da vermişik.

Şəkil 10-da əhatə olunmuş fəaliyyət istiqamətlərinin və ölkəmizdə investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi üçün vacib olan məsələlərin kompleks və sistemli şəkildə baxılması və reallaşdırılması vacib şərtlərdəndir. Əlverişli investisiya mühitinin formalaşması üçün əsas şərtlər sabit iqtisadi inkişaf templəri, siyasi sabitlik və bazar institutlarının mövcudluğu, ilk növbədə, şəffaf və sabit iqtisadi qanunvericilik, inkişaf etmiş kredit və bank sisteminin mövcudluğu hesab olunur. Bundan əlavə, investisiyaya dövlət dəstəyi tədbirləri də olduqca vacibdir və s.




**Şəkil 10. Azərbaycanda investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi yolları (**müəllif tərəfindən hazırlanmışdır**).**

**Tədqiqat zamanı əldə edilmiş əsas nəticələrin, yeni elmi yanaşmaların, təklif və tövsiyələrin bir qismini qeyd edirik:**

Müasir dövrdə əlverişli investisiya mühitinin yaradılması ölkə iqtisadiyyatına investisiya axınının intensivləşməsinə və bununla davamlı iqtisadi artımın təmin olunmasına daha münbit şərait yarada bilər və bu məqsədlə bir qrup istiqamətlər üzrə tədbirlərin görülməsi və amillərin nəzərə alınması səmərə verə bilər. Yaxın perspektivdə hesab edirik ki, investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi və investisiya cəlbediciliyinin artırılması ölkənin resurs potensialından və bu potensialın keyfiyyətindən maksimum asılı olacaqdır. Fikrimizcə, investisiya mühitinin yaxşılaşdırılması üçün, ilk növbədə, qeyri-qanuni iqtisadi fəaliyyət növlərinin qarşısının alınması və qeyd etdiyimiz kimi, sağlam rəqabət mühitinin təmin edilməsi sahibkarlığın inkişafına mane olan halların minimuma endirilməsi mühüm şərtlər kimi ön planda olacaqdır və bu istiqamətlərdə bir sıra məsələlərə daha çox önəm verilməlidir:

- Ölkədə qanunsuz sahibkarlıq fəaliyyətlərinin müəyyən edilməsi və qarşısının alınması istiqamətində aparılan işlərin genişləndirilməsi, sahibkarlığın inkişafında investisiya amilinin rolunun artırılması, daxili investisiya mexanizmlərinin maksimum yenilənməsi və xarici investisiyaların intensiv cəlb olunması məsələlərinin daha işlək stimullaşdırıcı mexanizmlərinin işlənməsi və tətbiqi.

- İnvestisiya proseslərini sürətləndirən müasir informasiya texnologiyalarının tətbiqi, xüsusilə rəqəmsal texnologiyalar infrastrukturunun yaradılması.

- İnvestorlar üçün əlverişli şərtlərlə uzunmüddətli maliyyə-kredit resurslarına çıxışın təmin edilməsi tədbirlərinin reallaşdırılması və mexanizmlərin tətbiq olunması.

Bunlarla bərabər, qlobal iqtisadi çağırışlar şəraitində investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi üçün bir sıra istiqamətlər üzrə tədbirlər kompleksini diqqətə çatdırırıq və məqsədəuyğun sayırıq:

1. İqtisadiyyatın müxtəlif sahələri üçün vacib olan investisiya resurslarının formalaşdırılması mənbələrinin diversifikasiyalaşdırılması təmin edilməli və bu proseslərdə əhalinin əmanətlərinin real iqtisadiyyat sektoru sahələrinə yönəldilməsinə nail olunmlı.

2. İri və prioritet investisiya-innovasiya layihələrinin dövlət tərəfindən yüksək səviyyədə dəstəklənməsi tədbirləri görülməli və bununla əlaqədar olaraq beynəlxalq təcrübədə məqbul hesab olunan dövlət dəstəyi mexanizmlərinin işlənib hazırlanması.

3. Ölkəmizdə investisiyaların formalaşması, bölüşdürülməsi və investisiya axınların hərəkəti üzrə optimal nəzarət mexanizminin tətbiq edilməsi məqsədilə təkmilləşdirilmiş idarəetmə sisteminin formalaşdırılması.

4. Qlobal iqtisadi təhdidlər və dünya maliyyə-investisiya bazarının hazırkı inkişaf səmtləri əsas götürülməklə Azərbaycanda cəlbedici və əlverişli investisiya bazarının formalaşdırılması.

5. Dünya təcrübəsində investisiya amilinin yaxşılaşdırılmasını ləngidən problemlərin vaciblərinin bu qeyd olunanlardan ibarət olduğu qənaətindəyik: 1) qanunvericilik bazasının qeyri-mükəmməllliyi və işlək olmamaması: 2) ölkədə investisiya-innovasiya infrastrukturunun inkişaf səviyyəsinin aşağı olması; 3) dövlət dəstəyi mexanizmlərinin qeyri-adekvatlığı və səmərəlilik səviyyəsinin yüksək olmaması; 4)

vergi sisteminin boğucu xarakter daşıması; 5) sahibkarlığın və biznesin inkişafını süni baryerlərin ləng aradan qaldırılması; 6) maliyyə xidmətləri bazarının zəif inkişafı və b.

6. Məlumdur ki, Azərbaycanda Sahibkarlığa Kömək Milli Fondu fəaliyyət göstərilir və bu Fond vasitəsilə hər il ölkə iqtisadiyyatının müxtəlif sahələrində, xüsusilə, qeyri-neft sahələrində və xidmət sektorunda müxtəlif layihələr maliyyələşdirilir, güzəştli kreditlər verilir. Amma sirr deyildir ki, bu imkanlardan çox məhdud sayda sahibkarlıq subyektləri faydalanır. Həmin Fondun maliyyə imkanlarının genişləndirilməsi, əlavə investisiya resurslarının, o cümlədən, xarici mənbələrdən investisiyaları cəlb edilməsi hesabına daha geniş həcmdə güzəştli kreditlərin verilməsi və investisiya layihələrinin maliyyələşdirilməsi tədbirləri həyata keçirilməsi səmərəli ola bilər.

7. Ölkənin iqtisadi rayonlarında investisiya-innovasiya fəaliyyətinin dövrün tələbləri səviyyəsinə qaldırılmasına zərurət vardır. Regionlarda sərbəst balansa malik bank-kredit təşkilatları fəaliyyət göstərmirlər, ixtisaslaşdırılmış maliyyə-investisiya qrupları və fondları yoxdur, cəlbedici maliyyə xidmətləri məhduddur və bütün bunlar regionların investisiya mühitinin inkişaf etməməsinin göstəricisi kimi qiymətləndirilə bilər. Bu baxımdan ölkə regionlarında investisiya mühitinə və investisiya cəlbediciliyinə təsir edən amillərin kompleks olaraq baxılması və dəyərləndirilməsi, adekvat tədbirlərin görülməsi həllini gözləyən məsələlərdəndir.

8. Fikrimizcə, investisiya mühitinin yaxşılaşdırılmasına mane olan problemlərin sistemli şəkildə həll edilməsi investisiya mühitinin səmərəlilik problemlərin həllinə gedən qısa yol kimi qiymətləndirilməlidir. Bu və ya digər səbəbdən yaranmış baryerlərin aradan qaldırılması, investisiya-innovasiya mühitinin bərqərar edilməsi, təbii resursların istehsal dövriyyəsinə cəlb olunması və ixrac potensialında özünü göstərməsi tədbirlərinin görülməsi, əvvəldə qeyd etdiyimiz kimi, qeyri-neft sektorunun müxtəlif sahələrində inhisarçılıq hallarının aradan qaldırılması, alternativ, sərbəst maliyyə-investisiya mənbələrinin formalaşdırılması, dünya təcrübəsindən irəli gələn iqtisadi fəaliyyət zonaların təşkilinə zərurət qalmaqdadır.

9. Potensial investisiyayönlü və investor şirkətlərlər və firmalarla çoxşaxəli əlaqələrinin yaradılması və xüsusilə Azərbaycanla sıx

iqtisadi əməkdaşlıq edən ölkələrdən investorların bu layihələrə cəlb edilməsinin daha münasib və stimullaşdırıcı şərtləri və mexanizmləri hazırlanmalı, fəal şəkildə təqdimatlar keçirilməli, müvafiq elektron portal yaradılmalı, dünyanın müxtəlif ölkələrində və beynəlxalq maliyyə-investisiya institutlarında, holdinqlərində təqdimatlar edilməlidir. Bundan əlavə, bizə görə, yaxın perspektivdə dünyanın aparıcı investisiya və maliyyə subyektləri, görkəmli siyasi-iqtisadi xadimlər, Nobel mükafatı laureatları, maliyyə və investisiya sahəsində nəhəng şirkətlər dəvət olunmaqla, "Qarabağ və Şərgi Zəngəzur Beynəlxalq İnvestisiya Forum"unun təşkili məqsədəuyğundur.

10. Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının təbii potensialından məhsuldar istifadə olunması və məcburi köçkünlərin mütəşəkkil şəkildə "Böyük Köç" qayıdışının təmin olunması ilə bağlı strateji hədəflərdən yanaşmaqla, postkonflikt ərazilərdə sərbəst balansa malik və burada yerləşməsi nəzərdə tutulan "Qarabağ İnvestisiya Fondu"nun yaradılması işğaldan azad olunmuş ərazilərdə investisiya mühitinin maksimum əlverişli şərtlərlə formalaşdırılmasına və potensial investorların bölgəyə axınının intensivləşdirilməsinə əsaslı təkan verə bilərdi. Bu Fondun yaradılması və fəaliyyətinin təşkili ilə bağlı görülməsi nəzərdə tutulan tədbirlərin alqoritm-sxemini işdə vermişik və hesab edirik ki, Fondun tezliklə yaradılması məsələləsinə baxılması vacibdir. Belə ki, hazırda fəaliyyət göstərən "Qarabağ Dirçəliş Fondu" daha çox ictimai birlik və qurum kimi fəaliyyət göstərir. Yaradılması təklif olunan "Qarabağ İnvestisiya Fondu"nun isə beynəlxalq səviyyədə fəaliyyət göstərə biləcək peşəkar maliyyə-investisiya subyekti kimi formalaşdırılması və inkişaf etdirilməsi əsas hədəf kimi nəzərdə tutulur və bu Fondun Ağdam rayonunda, yaxud Füzuli Beynəlxalq Hava Limanın yaxınlığında yerləşdirilməsi daha cəlbedici olardı.

11. Azərbaycanda investisiya mühitinin maksumum yaxşılaşdırılması və investisiya cəlbediciliyinin artırılması məqsədilə, ölkədə investisiya-innovasiya proseslərinin vahid idarəetmə mexanizmlərinin yaradılmasına və işləkliyinə nail olunması daha böyük səmərə verə bilərdi. Real vəziyyət bundan ibarətdir ki, milli innovasiya sistemi və çoxfunksiyalı innovasiya mərkəzləri, innovasiya zonaları yoxdur. AR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "İnnovasiya və rəqəmsal inkişaf Agentliyi"nin məhdud sahə

maraqlarından irəli keçəcəyini gözləmək çətindir və bu istiqamətdə daha sərbəst, həm də geniş funksiyalara malik mərkəzi idarəetmə strukturuna ehtiyac vardır. Hesab edirik ki, ölkə Prezidentinin 7 avqust 2020-ci il tarixli Fərmanı ilə yaradılmış "Azərbaycan İnvestisiya Holdinqi"nin fəaliyyətini bir az da təkmilləşdirilərək, "Azərbaycan İnvestisiya və İnnovasiya Holdinq"inə çevrilməsi məqsədəuyğundur. Bu halda ölkəmizdə milli iqtisadiyyatın perspektiv sahələri üzrə iri və prioritet investisiya-innovasiya layihələrinin daha səmərəli reallaşdırılması, investisiya resurslarının konsolidasiyası, investisiya mühitinin maksumum yaxşılaşdırılması və investisiya cəlbediciliyinin artırılması imkanları xeyli artmış olar və s.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı 26 elmi nəşrdə öz əksini tapmışdır:**

1. Dünya ölkələrində investisiya mühitinin formalaşdırılması prosesləri və investisiya fəallığının gücləndirilməsi mexanizmləri // "Elmi Əsərlər" jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı.– 2018. № 01. – s. 138-145.
2. Актуальные проблемы и вопросы по формированию и обеспечению рациональности инвестиционного климата в аграрной сфере Азербайджана // USA, Philadelphia. Technology and science. 30.03.2018, Международный научный журнал ISJ Theoretical & Applied Science, Impact Factor JIF: 1.500; Impact Factor SIS (Texas, USA): 0.912; Impact Factor ICV=6.630. 2018. Issue: 07 Volume: 59. – p. 307-312.
3. Современные проблемы формирования и повышения привлекательности инвестиционного климата Азербайджана // USA, Philadelphia. Technology and science. 30.07.2018, Международный научный журнал ISJ Theoretical & Applied Science, Impact Factor JIF: 1.500; Impact Factor SIS (Texas, USA): 0.912; Impact Factor ICV=6.630. 2018/ Issue: 07 Volume: 63. – s.198-205.
4. Modernləşmə şəraitində aqrar sahəyə dövlət yardımı mexanizmlərinin təkmilləşdirilməsi yolları / "İqtisadi təhkükəsizlik: Mövcud vəziyyət və perspektivlər". Beynəlxalq elmi konfransın materialları. Sumqayıt. 2-3 may 2018. – s.419-421.

5. Müasir şəraitdə investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri // “Audit” jurnalı (BBU). 2018. №2. – s. 81-91.

6. Azərbaycanda investisiya mühitinin səmərəliliyinin artırılması yolları / Azərbaycan Kooperasiya Universitetinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin, İqtisadçılar İttifaqının, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, Kooperasiya Universiteti. 01 iyun 2018-ci il. – s.792-796.

7. Ölkənin investisiya mühitinin formalaşması və cəlbediciliyinin artırılmasının tənzimlənməsi istiqamətləri.// “Audit” jurnalı (BBU). 2018. №3. – S.11-20.

8. Azərbaycanda qlobal iqtisadi çağırışlar kontekstində investisiya mühitinin və strukturunun qiymətləndirilməsi// “Xəbərlər” jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı. 2018. № 05. – s.78-84.

9. Azərbaycanda milli iqtisadiyyatın artmına investisiyaların təsirinin təhlili və qiymətləndirilməsi / AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş “İqtisadi artim və ictimai rifah” mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı. 18 oktyabr 2018. – s. 108-112.

10. Modernləşmə şəraitində aqrar sahənin inkişafına investisiya yatırımları ərzaq təhlükəsizliyi üçün başlıca amildir // “Kooperasiya” jurnalı. Bakı. 2018. № 04.– s. 73-77.

11. İnvestisiya mühitinin yaxşılaşdırılmasına mane olan problemlərin təhlili və qiymətləndirilməsi məsələləri // Elmi Əsərlər jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı. 2019. № 01. – s.76-83.

12. İnvestisiya mühitinin formalaşdırılması proseslərinin və mexanizmlərinin müasir aspektləri // “Geostrategiya” jurnalı. 2019. № 02. – s.25-28.

13. Dünya ölkələrində investisiya mühitinin formalaşması təcrübəsinin Azərbaycana tətbiqi məsələləri // “Audit” jurnalı (BBU), Bakı. 2019. № 02. – s.50-60.

14. İnvestisiya mühitinin səmərəliliyinin artırılması və fəallığının təmin edilməsinə strateji yanaşmaların əhəmiyyəti // “Xəbərlər” jurnalı. 2019. № 04. – s.31-39.

15. Qlobal iqtisadi çağırışlar kontekstində investisiya proseslərinin idarəetmə mexanizmlərinin qiymətləndirilməsi // "Audit" jurnalı, (BBU), Bakı. 2019. № 03. – s.153-163.

16. Основные цели совершенствования инвестиционных механизмов в контексте стратегических дорожных карт Азербайджана // «Финансовая экономика», России, Москва. 2020. – №12 (3). – s. 264-268.

17. İnvestisiya mühitinin cəlbediciliyi və iqtisadi təhlükəsizlik arasındakı qarşılıqlı fəaliyyətin nəzəri-metodoloji problemləri / "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" Beynəlxalq Elmi Konfransın materialları Sumqayıt Dövlət Universiteti, Sumqayıt. 8-9 iyul 2020-ci il.– s.84-89.

18. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə investisiya fəallığının strateji aspektləri // "Tikintinin iqtisadiyyatı və menecment" jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı. 2020. № 03. – s. 288-297.

19. Ölkənin ticarət-logistika infrastrukturunun tranzit potensialından səmərəli istifadə olunmasında investisiya fəallığının rolu / "Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu" mövzusunda Respublika elmi konfransı. Sumqayıt Dövlət Universiteti. 22–23 oktyabr 2020-ci il. – s. 72-76.

20. Azərbaycanda investisiya potensialının gücləndirilməsi və infrastrukturun yaradılması problemləri // "Geostrategiya" jurnalı, Bakı. 2020. № 03-04. – s.51-55.

21. Postpandemiya dövründə Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması prioritetləri // "Kooperasiya" jurnalı. Bakı. 2021. №3(62**). – s.** 4-15.

22. İnvestisiya mühitinin səmərəlilik problemlərinə nəzəri-metodoloji yanaşmalar // "Geostrategiya" jurnalı, Bakı. 2021. № 4 (64) – s.133-138.

23. Пути повышения эффективности инвестиционной среды Азербайджана в современных условиях / IV Международная научно-практическая конференция «Вызовы современности и стратегии развития общества в условиях новой реальности» (шифр –МКВСС) 20 августа 2021 года. 20 августа 2021 г. – s.169-176.

24. Стратегическая важность усиления инвестиционной

активности в условиях новых вызовов // «Финансовая экономика», России, Москва. 2021. №08. – s.207-211.

25. Актуальность совершенствования государственной инвестиционной политики Азербайджана в постпандемическом периоде / Сборник материалов IV Международной Научно-Практической Конференции «Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе» (шифр– МКПЦР), г. Москва, 24 сентября 2021 года. – s. 110-118.

26. Историческая важность повышения эффективности инвестиционной среды в Азербайджане // “Вопросы истории”. Москва. 2021. №9(2). – s. 148-155.

Dissertasiyanın müdafiəsi "23" may 2022-ci il tarixində saat 14:00 Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat "22" aprel 2022-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: “18” 04 2022
Kağızın formatı: 60x84
Həcm: 81448 işarə
Tiraj: 100  ədəd